1 - 2_Layout 1 14.06.2022 9:33 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*

**İlham ƏLİYEV**


# ƏSGƏR

№ 12 (626)

15 iyun 2022-ci il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti


# Milli Qurtuluş Günü: Əsası 1993-cü il iyunun 15-də qoyulan inkişaf və zəfər yolu

Azərbaycan xalqının taleyində böyük əhəmiyyəti olan günlərdən biri və ən önəmlisi tariximizə qızıl hərflərlə yazılmış 15 İyun – Milli Qurtuluş Günüdür. Bu əlamətdar gündən ötən 29 il Azərbaycanın qurtuluş və zəfər dövrüdür. 1993-cü il iyunun 15-də Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə Azərbaycan dərin ictimai-siyasi və iqtisadi böhrandan xilas oldu, inkişafın sarsılmaz təməli qoyuldu.

Azərbaycan xalqı Qurtuluş Gününü fərqli əhval-ruhiyyə ilə qeyd edir. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Azərbaycan Ordusu Vətən müharibəsində parlaq Qələbə qazanaraq işğal altındakı torpaqlarımızı azad edib, ölkəmizin ərazi bütövlüyü təmin olunub. Ulu Öndərin ən böyük arzusu Azərbaycanı bütöv görmək idi. Ümummilli Liderin məcburi köçkünlər qarşısında çıxışlarının birində böyük inamla söylədiyi bu sözlər yada düşür: “Arzu edirəm ki, sizinlə birlikdə gedək Şuşaya. Gedəcəyik, inanın ki, gedəcəyik. Şuşa Azərbaycanın gözüdür, hər bir azərbaycanlı üçün iftixar mənbəyidir. Şuşa bizim mədəniyyətimizin, tariximizin rəmzidir. Şuşa hamı üçün əzizdir. Amma təkcə Şuşa yox, Laçın dağları da əzizdir. Biz heç vaxt Laçınsız yaşaya bilmərik. Ağdam kimi gözəl bir şəhər, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Kəlbəcərin o bulaqları, Kəlbəcərin o İsti suyu - biz onlarsız yaşaya bilmərik”.

Ulu Öndər Heydər Əliyevin arzuları 27 ildən sonra reallaşdı, Prezident İlham Əliyev ata vəsiyyətini yerinə yetirdi. Bu gün Şuşada, Laçında, Ağdamda, Füzulidə, Cəbrayılda, Zəngilanda, Qubadlıda, Kəlbəcərdə üçrəngli bayrağımız əzəmətlə dalğalanır.



### Böyük xilaskarlıq missiyası

Heydər Əliyevin adı tariximizə Vətənin və xalqın xilaskarı kimi yazılıb. Tarixə nəzər salsaq görərik ki, XX əsrin sonlarında dövlət müstəqilliyini bərpa edən Azərbaycan çox keçmədən böyük təhlükələrlə üzləşmişdi. Ölkədə hakimiyyət böhranı kulminasiya həddinə çatmış, xaos və anarxiya respublikanı bürümüşdü.

Azərbaycan torpaqlarının Ermənistan silahlı qüvvələri tərəfindən işğalı, getdikcə gərginləşən iqtisadi-siyasi, sosial vəziyyət ölkəni bu bəlalardan xilas edə biləcək, xalqı öz arxasınca aparmağa qadir liderə ehtiyac olduğunu şərtləndirirdi. Cəmiyyətdə elə bir ümumi fikir yaranmışdı ki, ölkəni düşdüyü bu ağır vəziyyətdən çıxarmağa qadir yeganə şəxsiyyət məhz Heydər Əliyevdir. Xalqımız öz dahi oğlunu təkidlə hakimiyyətə dəvət edirdi. 1993-cü il iyunun 9-da Ulu Öndər Heydər Əliyev xalqın çağırışına səs verərək Bakıya qayıtdı və bir neçə gündən sonra hakimiyyətin sükanı arxasına keçdi. Bu, sözün həqiqi mənasında, ölkəmizin taleyində dönüş anı, böyük qurtuluşa doğru atılan mühüm addım oldu.

### Qurtuluşdan Zəfərə: müdrik siyasətin parlaq nəticələri

İyunun 15-də Heydər Əliyev Azərbaycan Ali Sovetinin sədri seçildi və böyük risklərə baxmayaraq, qurtuluş missiyasını cəsarətlə öz üzərinə götürdü.

Qədirbilən xalqımız böyük xilaskarının xidmətlərini daim minnətdarlıq hissi ilə xatırlayır və Milli Qurtuluş Gününü hər il yüksək əhval-ruhiyyə ilə qeyd edir.

Azərbaycan Heydər Əliyev ideyalarının işığında böyük inkişaf yolu keçib. Bu amil əyani şəkildə göstərir ki, Heydər Əliyev siyasətinin alternativi yoxdur. Bugünkü Azərbaycan Heydər Əliyevin görmək istədiyi azad, müstəqil, ərazi bütövlüyü təmin olunmuş Azərbaycandır.

Prezident İlham Əliyevin Ulu Öndərin siyasi kursunu uğurla davam etdirməsi və zənginləşdirməsi sayəsində Azərbaycan dünyanın dinamik inkişaf edən, modernləşən, beynəlxalq miqyasda nüfuzu gündən-günə artan dövlətinə çevrilib. Vətən müharibəsində qazanılan möhtəşəm Zəfər də bu uğurların məntiqi nəticəsidir. Xalqımız əmindir ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə daha uca zirvələr fəth ediləcək, düşmənin yerlə-yeksan etdiyi Qarabağ dünyanın ən gözəl guşələrindən birinə çevriləcək.

**“AZƏRTAC”ın materialları əsasında hazırlanıb.**

# Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Ali Hərbi Məktəbində növbəti buraxılış olub

**İyunun 10-da Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Ali Hərbi Məktəbində 2021-2022-ci tədris ilinin buraxılışına həsr olunmuş təntənəli mərasim keçirilib.**

**Tədbirdə respublikanın Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov iştirak edib.**

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və vətənimizin suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olmuş, xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsi zamanı canlarından keçən hərbi qulluqçuların və polis əməkdaşlarının əziz xatirəsi yad edilib, Azərbaycanın Dövlət Himni səsləndirilib.




Nazir müavini – Daxili Qoşunların komandanı general-leytenant Şahin Məmmədov məzunların buraxılış mərasiminin Ali Hərbi Məktəbin həyatında əlamətdar hadisələrdən biri olduğunu diqqətə çatdıraraq təhsil müəssisəsinin inkişaf yolu, maddi-texniki və tədris bazasının gücləndirilməsi istiqamətində görülən işlər və qarşıda duran vəzifələr barədə məruzə edib.



Gənc zabitlər önündə çıxış edən nazir Vilayət Eyvazov məmnunluqla bildirib ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev qoşunların döyüş hazırlığının yüksəldilməsini daim nəzarətdə saxlayıb, müasir silah və texnika ilə təminatı, şəxsi heyətinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində bir çox vacib qərar qəbul edib. Məhz bu ali diqqətin nəticəsidir ki, Daxili Qoşunlar qarşıya qoyulan xidməti-döyüş tapşırıqlarını yüksək səviyyədə yerinə yetirməyə qadir silahlı birləşməyə çevrilib.

General-polkovnik V.Eyvazov Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında möhtəşəm qələbə ilə nəticələnən Vətən müharibəsində Daxili Qoşunların hərbi qulluqçularının da ön cəbhədə iştirak edərək qəhrəmanlıq və vətənpərvərlik nümunələri göstərdiklərini, onların arasında Ali Hərbi Məktəbin də məzunlarının olmasını bu təhsil müəssisəsində kursantların dövlətə, xalqa, hərbi anda sədaqət ruhunda formalaşmaları üçün ortaya qoyulmuş əzmkar fəaliyyətin əyani təsdiqi olduğunu vurğulayıb.

O, qələbədən sonrakı dövrdə Daxili Qoşunların şəxsi heyətinin işğaldan azad edilmiş ərazilərdə polis əməkdaşları ilə birgə xidmət etmələrini də məmnunluqla qeyd edib.

Daxili Qoşunlar üçün yüksək ixtisaslı kadrların hazırlanmasında danılmaz roluna, təmənnasız yardımlarına görə qardaş Türkiyə Respublikasının Jandarm Qüvvələri Baş Komandanlığına, hərbi mütəxəssislərinə təşəkkürünü bildirən nazir V.Eyvazov bu işdə digər ölkələrin də analoji təhsil müəssisələri ilə işgüzar əlaqələrin əhəmiyyətini vurğulayıb.






Məzunların həyatında yeni bir dövrün başladığını nəzərə çatdıran Daxili işlər naziri gənc zabitləri, onların valideynlərini və yaxınlarını Ali Hərbi Məktəbi müvəffəqiyyətlə bitirmələri münasibətilə təbrik edib, Daxili Qoşunlar üçün peşəkar kadrlar hazırlayan bu ali təhsil ocağının rəhbərliyinə və zabit-müəllim heyətinə təşəkkürünü bildirib, fəaliyyətlərində onlara uğurlar arzulayıb.

Çıxışının sonunda Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevi əmin edib ki, daxili işlər orqanlarının və Daxili Qoşunların şəxsi heyəti bundan sonra da xalqa və dövlətə sədaqətlə xidmət edəcək, qarşıya qoyulmuş tapşırıqların tam və layiqincə yerinə yetirilməsi üçün var qüvvəsi ilə çalışacaqdır.

**DİN-in Mətbuat xidməti**

2 - 3_Layout 1 14.06.2022 9:30 Page 1



# “FORMULA-1 AZƏRBAYCAN QRAN-PRİ” YARIŞI ZAMANI TƏHLÜKƏSİZLİK TƏDBİRLƏRİ HƏRBİ QULLUQÇULARIMIZ TƏRƏFİNDƏN YÜKSƏK SƏVİYYƏDƏ TƏMİN EDİLİB

**“Formula-1 Azərbaycan Qran-Pri” yarışı ilə əlaqədar Daxili Qoşunların şəxsi heyətinin hazırlığı yoxlanılıb**



Bu il iyun ayının 10-dan 12-dək paytaxtımız növbəti dəfə “Formula-1 Azərbaycan Qran-Pri” yarışına evsahibliyi edib. Bu idman yarışı zamanı ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi, cinayətlərin qarşısının alınması, ərazinin mühafizəsi və nəzarət-buraxılış tədbirlərinə polis əməkdaşları ilə birlikdə cəlb olunan Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının şəxsi heyəti də qarşıya qoyulan tapşırıqların icrasına tam məsuliyyətlə yanaşmaqla, üzərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəlib.



Qeyd edilməlidir ki, ilk növbədə, müvafiq plan-hesab hazırlanaraq şəxsi heyətin xidmət sahələri üzrə bölgüsü aparılıb, polislə qoşunların birgə fəaliyyətinin əlaqələndirilməsi, tədbirin təşkilatçıları, aidiyyəti dövlət qurumları ilə qarşılıqlı əlaqələrin təşkili məqsədilə Baş idarəetmə mərkəzi yaradılıb. Yarışın təşkil olunacağı ərazi və obyektlərə baxış keçirilərək xidmətin təşkili baxımından təhlil olunub, aidiyyəti üzrə komandir heyəti xidmətaparma yerləri ilə əyani tanış edilib. Xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsinə cəlb olunan şəxsi heyətə tədbirin əhəmiyyəti, qanunçuluq, vətəndaşların hüquq və azadlıqlarının qorunması prinsipləri izah edilərək, vəzifə borclarının icrasına məsuliyyətlə yanaşılması tələb olunub.



Yarış ərəfəsində Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının 99713 və 67987 saylı hərbi hissələrində keçirilən tədbirdə “Formula-1 Azərbaycan Qran-Pri” yarışı zamanı ictimai qaydanın qorunmasına və ictimai təhlükəsizliyin təmin olunmasına cəlb ediləcək hərbi qulluqçuların xidmətə hazırlığı, təminat-təchizat məsələlərinin həlli, eləcə də nəqliyyat vasitələrinin vəziyyəti yoxlanılıb. Xüsusi təyinatlı bölmələrin, perimetr boyu xidmətin aparılmasına cəlb olunacaq şəxsi heyətin, o cümlədən, qadın hərbi qulluqçuların xüsusi geyim formalarına, hərtərəfli təminatına, xüsusi vasitə və avadanlıqlarla, rabitə vasitələrilə təchizatına və nəqliyyat vasitələrinə xüsusi diqqət yetirilib.

Bununla yanaşı, həvalə edilən obyektlərin mühafizəsi, nəzarət-buraxılış məntəqələrində buraxılış rejiminin təmini mövzuları üzrə xüsusi məşğələlər keçirilib, xidmətə cəlb olunacaq qadın hərbi qulluqçuların da müvafiq məşğələlərdə iştirakı təmin edilib.



Müəyyən edilib ki, yarış zamanı xidməti-döyüş tapşırıqlarının tam həcmdə yerinə yetirilməsi üçün planlaşdırılmış hazırlıq tədbirlərinin vaxtlı-vaxtında icrası təmin olunub.

İyun ayının 7-də Atletlər kəndində, 10 iyundan etibarən isə yarış zolağında müəyyən edilmiş tapşırıqların icrası ilə əlaqədar Daxili Qoşunların xidmətə cəlb olunan hərbi qulluqçularının polis əməkdaşları ilə birlikdə xidməti başlayıb. Hərbi qulluqçularımız tərəfindən yarış və qeyri-yarış obyektlərinin mühafizəsi istiqamətində qarşıya qoyulan bütün tapşırıqlar uğurla yerinə yetirilib. Mühəndis-istehkam qrupları tərəfindən tamaşaçılar üçün quraşdırılmış tribunalar və digər obyektlər öncədən yoxlanılaraq müvafiq qaydada aidiyyəti üzrə mühafizəyə verilib. Nəzarət-buraxılış məntəqələrində buraxılış rejimi təmin olunub, hərəkət icazəsi olan mülki avtomobillərin yoxlanılması zamanı xidməti itlərdən də geniş istifadə edilib. Qeyd olunan istiqamətlər üzrə qarşıya qoyulmuş tapşırıqlar tam həcmdə yerinə yetirilərək, xidmətin aparılmasında hər hansı bir nöqsana yol verilməyib. Bu fəaliyyətə qadın hərbi qulluqçular da cəlb olunublar.



Həmçinin, xidmətə cəlb olunan hərbi qulluqçularla əvvəlcədən aparılmış təlimatlandırma, o cümlədən, onların mənəvi-psixoloji və fərdi keyfiyyətlərinə xüsusi diqqət yetirilməsi nəticəsində vətəndaşlarla, xüsusən əcnəbi qonaqlarla ünsiyyətdə etik davranış qaydalarına ciddi əməl olunub.



Yarış keçirilən müddətdə xidmətin təşkili üçün bütün profilaktik tədbirlər görülüb, şəxsi heyətin daşınması, onların qidalanması, hərbi qulluqçulara tibbi xidmətin göstərilməsi, asudə vaxtının səmərəli təşkili xüsusi diqqət mərkəzində saxlanılıb.

Göründüyü kimi, mötəbər tədbir zamanı ictimai təhlükəsizliyin təmin olunmasında kifayət qədər təcrübəyə malik olan Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının şəxsi heyəti bu dəfə də qarşıya qoyulmuş bütün tapşırıqları müvəffəqiyyətlə yerinə yetirib.

**Mətbuat xidməti**

# “YÜKSƏK DÖYÜŞ HAZIRLIĞI, MÖHKƏM HƏRBİ İNTİZAM BAŞLICA HƏDƏFİMİZDİR”



16077 saylı hərbi hissənin yüksək döyüş hazırlığı və nümunəvi xidmətilə fərqlənən bölmələrindən biri də polkovnik-leytenant Varis Nəcəfovun komandiri olduğu xüsusi vasitələrin tətbiqi dəstəsidir.

Tabeliyində olan bölmələrin ümumi fəaliyyətini təhlil edən komandir dəstənin qarşısına qoyulan vəzifələr barədə danışarkən bildirdi ki, şəxsi heyətlə keçirilən bütün təlimlər, məşğələlər, eləcə də aparılan tərbiyə işi yalnız bir məqsədə - hərbi qulluqçuların verilmiş tapşırıqların icrasına hər zaman hazır olmasına xidmət edir: “Şəxsi heyətin öz vəzifələrini yüksək səviyyədə və nümunəvi yerinə yetirə bilməsi üçün hərbi hissəmizdə hər bir şərait yaradılıb. Göstərilən diqqət və qayğıya cavab olaraq, bizim də üzərimizə təbii ki, böyük məsuliyyət düşür. Dəstə hər zaman döyüş hazırlığını yüksək səviyyədə qoruyub saxlamaqla, tapşırılmış vəzifələri yerinə yetirməyə daim hazır olmalıdır”.

O, dəstədə yüksək döyüş hazırlığının, nizam-intizamın əldə olunmasının vacibliyini qeyd edərək, praktiki və nəzəri məşğələlərdə mövzuların keyfiyyətlə keçirilməsinin və hər bir hərbi qulluqçu tərəfindən dərindən mənimsənilməsinin qabaqcıl təcrübənin əldə olunmasına təkan verdiyini söylədi. Əlavə etdi ki, gündəlik olaraq şəxsi heyətin tam tərkibdə olması yoxlanılaraq, tərtib olunmuş məşğələ cədvəlinə əsasən, məşğələlərin vaxtında keçirilməsi, hərbi qulluqçuların məşğələyə uyğun ekipirovkası və silahlanması təmin olunur.

Ümumiyyətlə, xüsusi əməliyyatlara cəlb olunan bölmələrin yüksək döyüş hazırlığına malik olmasında möhkəm hərbi intizamın və kollektivdə qarşılıqlı sağlam münasibətlərin mühüm rol oynadığını nəzərimizə çatdıran polkovnik-leytenant V.Nəcəfov bu işdə dəstə komandirinin tərbiyə işləri üzrə müavini kapitan Mahir Hacıyevin də əməyini yüksək qiymətləndirdi.

Kapitan M.Hacıyev dəstədə keçirilən söhbət, mühazirə, viktorina, disput, mövzu axşamı və s. kimi çoxşaxəli tərbiyə işi tədbirlərinin şəxsi heyətin hərbi-vətənpərvərlik ruhunun yüksəldilməsinə və hərbi intizamının möhkəmləndirilməsinə böyük təkan verdiyini diqqətə çatdırdı. O, dəstənin istənilən çətinliyin öhdəsindən gəlməyə hazır olduğunu bildirdi: “Qarşıya qoyulan bütün tapşırıqların müvəffəqiyyətlə yerinə yetirilməsinə daim hazır olmaq şəxsi heyətin əsas vəzifələrindən biridir. Keçirilən təlim və məşğələlərin, həmçinin, aparılan tərbiyə işinin əsas məqsədini də məhz bu amillər təşkil edir”.

Kapitan M.Hacıyev, həmçinin, təlim proqramlarında nəzərdə tutulmuş tədbirlərlə yanaşı, Daxili Qoşunlar komandanlığının müvafiq tapşırıqlarına uyğun olaraq, qrup və yarımqrup komandirlərinin hazırlıqlarına da xüsusi diqqət yetirdiklərini vurğuladı. Zabit şəxsi heyətin bilik səviyyəsinin artırılmasının, eləcə də peşə vərdişlərinin təkmilləşdirilməsinin bu baxımdan xüsusi əhəmiyyət kəsb etdiyini dedi: “Dəstədə tərbiyə işinin əsas istiqaməti hərbi qulluqçularda döyüş ruhunun yüksəldilməsi, nizam-intizamın möhkəmləndirilməsi, eləcə də sağlam kollektivin yaradılmasına nail olmaqdır. Bu səbəbdən dəstənin komandir heyətinin, o cümlədən, qrup və yarımqrup komandirlərinin hazırlığına ciddi diqqət yetirilir”.



Dəstə komandirinin tərbiyə işləri üzrə müavini təlim və məşğələlərdə nümunəvi xidmətilə fərqlənən, öz vəzifələrinə məsuliyyətlə yanaşan hərbi qulluqçuların adlarını da qeyd etməyi unutmadı. Belə ki, kapitan Vaqif İsmayılov, baş çavuş Nicat Əlizadə, əsgərlər İlham Eynullayev, Elnur Salmanov, Seymur Hüseynov, Qorxmaz Kazımzadə fərqlənən hərbi qulluqçulardandır.

**baş leytenant**
**Nigar Ağayeva**

3_Layout 1 13.06.2022 18:48 Page 1



Şəhidlərimiz

# DÖYÜŞ SINAĞINDAN ƏBƏDİYYƏT ZİRVƏSİNƏ APARAN ŞƏRƏFLİ YOL...

Bu gün düşmən tapdağından azad edilmiş yurdlarımızın hər qarışında od-alovlu döyüşlərin izləri qalıb. Həmin torpaqlara neçə-neçə şəhid və qazinin qanı tökülüb. Onlar uzun illər həsrətini çəkdiyimiz obalarımıza öz qədəmləri ilə yeni nəfəs veriblər. Ön cəbhənin barıt qoxulu yollarından keçməklə sinələrini mərmi və güllə atəşinə sipər etmiş igid oğullar xalqımızın başını ucaldıblar. Milli qürur və ləyaqət hissləri, vətənpərvərlik əqidəsi qalib döyüşçülərimizi zəfərə ruhlandırıb.

44 günlük Vətən müharibəsində Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının şəhid olmuş hərbi qulluqçularının siyahısında adı yazılan çavuş İmanzadə Hilal Sabir oğlunun ömür yolu qeyrət, fədakarlıq və hünər nümunəsidir. O, 1995-ci ilin iyun ayının 23-də Beyləqan rayonunun Milabad qəsəbəsində doğulub. Sabir İmanov və Rəfiqə Əzizovanın dörd oğul övladından biri idi. Hilalın yaşca böyük Allahverdi, Murad və ailənin sonbeşiyi Vüsal adlı qardaşları var. Onun rəmzi mənası olan, heç də tez-tez rast gəlinməyən adını atası bəyənərək seçib. Mehriban, zəhmətkeş ailədə böyüyərək boya-başa çatan Hilal həm əzizlərinə, həm də dostlarına diqqət və qayğı göstərməsi, ədəb-ərkanı, xeyirxahlığı, cəsarəti ilə fərqlənib. Yeniyetmə yaşlarından fiziki hazırlığına ciddi yanaşıb, davamlı şəkildə idmanla məşğul olub, boks üzrə məşqlərə gedib, yarışlara qatılıb. Rinqdə özündən yüksək çəki dərəcəli boksçuları da üstələməyi bacarıb.

Beyləqan rayonunun Araz qəsəbəsindəki Fazil Miriyev adına tam orta məktəbdə Hilal 6-cı sinfədək oxuyub, sonra Bakının Sabunçu qəsəbəsində yerləşən 215 saylı tam orta məktəbdə təhsil alıb. Müəllimləri onu vətənpərvər ruhda tərbiyə ediblər. Tam orta təhsil haqqında attestatında əksər fənn üzrə yaxşı, çağırışaqədərki hazırlıq fənnindən əla qiymət yazılıb. Hələ məktəbli olduğu vaxtdan Hilal hərbi xidmətə hazırlaşıb. Ümumilikdə, hərbi qulluqçulara və polis əməkdaşlarına rəğbət bəsləyib. Gələcəklə bağlı planlarında ali təhsil almaq, peşəkar idmançı kimi formalaşmaq da vardı. Orta məktəbdən sonra Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında ali təhsil almaq arzusu baş tutmayıb. Bir müddət videooperator işləyib.

2013-cü ilin oktyabr ayında Hilal müddətli həqiqi hərbi xidmətə çağırılıb. 2015-ci ilin aprel ayınadək Dövlət Sərhəd Xidmətinin Yevlax və Şəmkir rayonlarındakı "N" saylı hərbi hissələrində hərbi xidmət keçib. Müddətli həqiqi hərbi xidməti dövründə "kiçik çavuş" rütbəsinədək yüksəlib. Nümunəvi sərhədçi kimi hərbi xidmət borcunu vicdanla yerinə yetirib.

Hərbi xidmətdən tərxis olunduqdan sonra ailənin maddi rifahı üçün öz əməyini əsirgəməyib.



Polis orqanlarının sıralarında xidmət etmək üçün Daxili İşlər Nazirliyi tərəfindən təşkil olunan seçim mərhələsinə qatılıb. Seçim mərhələsində gəncə Daxili Qoşunların tərkibində xidmətə başlamaq təklif olunub. Hilal bu təklifi məmnuniyyətlə qəbul edib. Beləliklə, 2016-cı ilin iyul ayının 30-da Daxili Qoşunlarda müddətdən artıq həqiqi hərbi xidmətə başlayıb. 17074, 99713 və 67987 saylı hərbi hissələrdə xüsusi təyinatlı dəstənin xüsusi həmlə qrupunda qumbaraatan köməkçisi, snayper, xüsusi əməliyyat qrupunda atıcı-snayper, xüsusi həmlə qrupunda heyət nəfəri vəzifələrinə təyin edilərək komandanlığın etimadını doğruldub. Peşəkar xüsusi təyinatlı kimi qarşısına qoyulan bütün tapşırıqların öhdəsindən bacarıqla gəlib, təlimlər və məşğələlərdə fəal olub, öz peşə hazırlığını daim təkmilləşdirib, təhkim edilən silahlardan məharətlə atəş açıb, dəstənin fəaliyyət taktikasının xüsusiyyətlərini dolğun mənimsəyib. Xidməti fəaliyyət zamanı sayıqlıq və çeviklik göstərib. Hansı hərbi hissədə xidmət edibsə, özünə hörmət qazanıb. Döyüş və mənəvi-psixoloji hazırlığında müsbət cəhətdən fərqləndiyinə görə dəfələrlə mükafatlandırılıb.

2019-cu ilin noyabr-dekabr aylarında Türkiyə Respublikası Jandarm Baş Komandanlığının Foçadakı Komando Məktəbində snayper kursu keçən Hilala yüksək praktiki göstəricilərə nail olduğuna görə "Kəskin nişançı" mükafatı və müvafiq sertifikat verilib.

Vətən müharibəsi qazisi, ehtiyatda olan gizir Ruslan Kübərovun sözlərinə görə, Hilal onun tabeliyində xidmət edib. Xüsusi təyinatlının intizamlı, özünə qarşı tələbkar olduğunu, hərbi formasını həmişə səliqəli saxladığını, öz vəzifələrinə məsuliyyətlə yanaşdığını, qazandığı nailiyyətlərlə arxayınlaşmadığını, yoldaşlıqda dürüstlüyü qoruduğunu bildirdi.

Milli Qəhrəman, şəhid Mübariz İbrahimovun hünər nümunəsindən ruhlanan Hilal torpaqlarımızın işğaldan azad edilməsi naminə döyüşəcəyi, qisas məqamının yetişəcəyi günü xüsusi təyinatlı olaraq səbirsizliklə gözləyib.

2020-ci ilin sentyabr ayının 27-də erməni işğalçılarına qarşı Vətən müharibəsi başladıqda ön cəbhəyə ilk göndərilən döyüşçülərin arasında Hilal da vardı. 67987 saylı hərbi hissədə xüsusi təyinatlı dəstənin bir qrup şəxsi heyətinin tərkibində o, Füzuli-Cəbrayıl rayonları istiqamətində Müdafiə Nazirliyinin xüsusi təyinatlı bölmələrinin hərbi qulluqçuları ilə birlikdə döyüş tapşırıqlarının yerinə yetirilməsinə cəlb olunub. Xüsusi təyinatlının döyüş yolu oktyabrın 1-dək davam edib. Həmin günlər barədə Hilalın silahdaşlarının söhbət açdıqları maraqlı məqamları qeydə aldım.

Vətən müharibəsi iştirakçısı, 67987 saylı hərbi hissədə xüsusi təyinatlı dəstənin xüsusi həmlə qrupunda yarımqrup komandiri baş çavuş Elnur Zuliyev diqqətə çatdırdı ki, Hilalla göstərilən hərbi hissədə birgə xidmət edib, xüsusi təyinatlıların taktiki təlimlərinə də cəlb olunublar. Müharibə zamanı silahdaşı ilə eyni istiqamətdə vuruşublar. O, Hilalın yüksək döyüş qabiliyyətinə malik xüsusi təyinatlı olduğunu vurğuladı. Qorxmaz döyüşçü qətiyyətlə işğalçıların üzərinə hücuma gedib. Yarımqrup komandiri danışdı ki, ilk döyüşlərdə Lələtəpə yaxınlığında mövqeləniblər, Cəbrayıl rayonu istiqamətində, Arazqırağı zonada düşmənin postlarının ələ keçirilməsi, onun birinci müdafiə xəttinin yarılması təmin olunub. İşğalçılar döyüşçülərimizin həmlələrinə tab gətirə bilməyərək geri çəkiliblər. Növbəti mərhələdə isə təcavüzkarın ikinci müdafiə xəttinin yarılması tapşırığı qarşıya qoyulub. Təxminən 1 km məsafədə yerləşən müdafiə xəttinə doğru irəliləyiblər, əraziyə yaxınlaşdıqda erməni hərbçiləri tərəfindən müxtəlif çaplı silahlardan, artilleriya vasitələrindən atəşə tutulublar. Atəşdən qorunmaq və qısa vaxtda sığınmaq üçün xüsusi təyinatlılarımız istehkamçı beli ilə 1-2 nəfərlik, çox dərin olmayan səngərlər qazıblar.

Müsahibim məlumat verdi ki, Hilal önü düşmənə tərəf olan təpənin sağ cinahında mövqelənib. Sol cinahdakı döyüşçülərə sursat çatdırılması zərurəti yaranıb. Mövqelər arasında təxminən 350-400 metr məsafə olub. Hilal sursat yeşiyini qucağına alaraq yoldaşlarına tərəf qaçıb, ancaq o anda önünə qəfil minaatan mərmisi düşərək partlayıb. Başından və aşağı ətraflarından ağır yaralanan döyüşçü yerindəcə şəhadətə ucalıb. Bir neçə hərbi qulluqçumuz isə partlayış nəticəsində yaralanıb. İlk dəfə silahdaşlarının şəhid olmasını və yaralıları görən xüsusi təyinatlılar dərin sarsıntı yaşayıblar. Elnur onda olan yağmurluğu açaraq şəhidin üstünü örtüb. Döyüş davam etdirilib, xüsusi təyinatlılar düşməni ciddi itkiyə məruz qoyublar. Hilalın nəşini Elnur və bir neçə nəfər döyüşçü təhlükəli ərazidən çıxararaq təxliyyə qrupuna təhvil veriblər.



Vətən müharibəsi iştirakçısı, 67987 saylı hərbi hissədə xüsusi təyinatlı dəstənin xüsusi həmlə qrupunda atıcı-istehkamçı çavuş Elton Hacıyev Hilalla birgə xidmət edib. Müharibədə eyni qrupun tərkibində vuruşublar. Qeyd etdi ki, Hilal etibarlı yoldaş olub, ən çətin vəziyyətdə belə, silahdaşlarının köməyinə yetişib. Dözümlü, iradəli, hərtərəfli hazırlıqlı hərbi qulluqçu kimi ön cəbhədə cəsurluq göstərib, son nəfəsinədək hərbi anda sadiq qalıb. Elton söylədi ki, oktyabrın 1-də Hilalın şəhid olduğu anları xatırlamaq onun üçün çox ağırdır. Döyüşdən qabaq Hilal əşyalarının içinə məktub yazaraq qoyub. Xüsusi təyinatlıya məxsus çantalardan biri döyüşlərdən sonra çox axtarılsa da tapılmayıb.

6 oktyabr 2020-ci il tarixli ölüm haqqında şəhadətnamədə Hilalın 2 oktyabr 2020-ci ildə Füzuli rayonunda hərbi əməliyyat nəticəsində qəlpə yaralanması, kəllə və üz skelet sümüklərinin sınıqları nəticəsində həlak olduğu barədə qeydlər öz əksini tapıb.

Şəhid hərbi qulluqçumuz Beyləqan rayonunun Peyğəmbər ziyarətgahı qəbiristanlığında dəfn olunub.

Azərbaycan Respublikası Prezidentinin 15.12.2020-ci il tarixli, 24.12.2020-ci il tarixli müvafiq sərəncamları ilə çavuş H.İmanzadə ölümündən sonra "Vətən uğrunda" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilib.

Qeyd edim ki, Hilalın babası Cümşüd İmanov 1941-1945-ci illərdə faşistlərə qarşı döyüşüb, medallarla mükafatlandırılıb. 44 günlük Vətən müharibəsində isə şəhidin bəzi qohumları torpaqlarımızın azad olunmasında iştirak ediblər.

"Qələbə şəhidləri", "Beyləqan şəhidləri" və "Əsrimizin qəhrəmanları" kitablarında Hilal haqqında məlumatlar dərc olunub. Televiziya kanalları tərəfindən şəhidə həsr olunan süjetlər çəkilib, sosial şəbəkələrdə videoçarxlar hazırlanıb.

Mərhum xüsusi təyinatlının doğma yurdunda onun xatirəsinə abidə-bulaq inşa olunub, plakat quraşdırılıb. Foçada ucaldılan abidənin üzərində adı həkk edilib.

Yeni Ramanada ailəsinin yaşadığı evin önündəki divarda Hilal və şəhid silahdaşlarının şəkilləri əks olunan xatirə lövhəsi yaradılıb, evin yaxınlığında plakat qoyulub.

Şəhid döyüşçü haqqında şeir yazılıb, mahnı bəstələnib. 215 saylı tam orta məktəbin 5 "ç" sinfinə Hilalın adı verilib.

Hilal subay idi, ev tikməyi, ailə qurmağı arzulayırdı. Sağlığında öz maaşından imkansızlara, şəhid ailələrinə, əlillərə dəfələrlə maddi yardım edib, qurban kəsdirərək paylayıb.

Əzizləri indi yuxularında onunla qovuşurlar. Bir dəfə yuxuda anasına deyib ki, bütün şəhidlərin ehsanına şirniyyat bişirsin. Şəhidin anası maraqlı bir hadisənin şahidi olub. Evlərinin həyətinə günlərin birində ağ göyərçin qonub, qanad açaraq Rəfiqə anaya yaxınlaşıb, sonra bir neçə dəfə havada dövrə vuraraq gözdən itib.

Ailə tərəfindən evin ayrıca otağında Hilaldan yadigar saxlanılan şəkil və əşyaların içində ön cəbhədən gətirilmiş karton kağız parçası var. Kağızda yazılan cümlədə Hilal valideynlərindən və qardaşlarından halallıq istəyib.

**Ruhun şad olsun, Hilal!**
**Allah rəhmət eləsin!**

**Yalçın Abbasov**

# HƏRBİ HİSSƏLƏRDƏ QAZİLƏRLƏ GÖRÜŞ KEÇİRİLİB

Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpası uğrunda döyüşlərdə iştirak edərək sağlamlığını itirmiş qazilərin fədakarlığı bugünkü və gələcək nəsillərə dəyərli örnəkdir. 44 günlük Vətən müharibəsi zamanı düşmən üzərində möhtəşəm hərbi zəfərin qazanılmasına hər bir qazi öz layiqli töhfəsini verib. Qazilər dövlətimizin müxtəlif orden və medallarına layiq görülüblər.

Ölkəmizdə qazilər dövlət qayğısı ilə əhatə olunublar, onların müalicəsi, tibbi-sosial reabilitasiyası, maddi rifahının yüksəldilməsi, yaşayış şəraitinin yaxşılaşdırılması, təhsilə, məşğulluğa əlçatanlığının təmin edilməsi, hüquq və mənafelərinin qorunması istiqamətlərində çoxşaxəli tədbirlər həyata keçirilir.







Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev öz çıxışlarında qazilərin Vətən qarşısında xidmətlərini yüksək qiymətləndirib, dövlət qurumlarına bu kateqoriyadan olan vətəndaşlarımızın problemlərinin həlli ilə bağlı göstərişlərini verib, onların ehtiyaclarına həssas münasibət göstərilməsini tələb edib. Dövlət başçısının iştirakı ilə dəfələrlə qazilər üçün mənzillərin və avtomobillərin təqdim edilməsi, habelə sosial obyektlərin açılması münasibətilə tədbirlər təşkil olunub. Möhtərəm Prezidentimizin təşəbbüsü ilə qazilərlə bağlı dövlət siyasətini əks etdirən mühüm qanunvericilik aktları, xüsusi proqramlar hazırlanaraq qüvvəyə minib. Bütün qazilərə təqaüd və müavinətlər verilir, onlar, eləcə də ailə üzvləri müvafiq imtiyazlara malikdirlər.

Cəmiyyətimizdə qazilərə böyük hörmət və ehtiram göstərilir. Vətəndaşlarımız çalışdıqları sahələrdə və yaşadıqları yerlərdə qazilərə öz köməklərini əsirgəmirlər. İctimaiyyətin geniş mənəvi dəstəyi qaziləri ruhlandırır, onların ailələrində də müsbət ovqat yaradır. Müharibə sınağından keçmiş qazilərin gənclərin hərbi-vətənpərvərlik tərbiyəsi işində rolu və fəaliyyəti təqdirəlayiqdir. Bununla yanaşı, qazilərin nüfuzu cəmiyyətdə ümummilli məsələlərlə əlaqədar ictimai həmrəyliyin formalaşmasında fəal iştiraklarına zəmin yaradan vacib amildir.

Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının xeyli sayda hərbi qulluqçusu müharibə veteranıdır. Ön cəbhədən qazi olaraq geri qayıtmış bir çox hərbi qulluqçumuz ehtiyata və istefaya buraxılıb. Daxili İşlər Nazirliyinin rəhbərliyi və Daxili Qoşunların komandanlığı tərəfindən şəhid ailələri, qazilər, veteranlarla bağlı bütün məsələlər daim xüsusi diqqət mərkəzində saxlanılır. Onlara mənəvi və maddi qayğı göstərilməsi bu diqqətin təzahürüdür.

İyunun 8-də Daxili Qoşunların hərbi hissələrində Vətən müharibəsi qaziləri ilə görüş keçirilib. Hərbi hissələrə dəvət olunan qazilərin iştirakı ilə keçirilən tədbirlərdə şəhidlərin abidələri önünə gül dəstələri qoyulub, xatirələri anılıb. Qərargahlarda hərbi hissələrin xidməti-döyüş fəaliyyətini əks etdirən fotostendlərlə tanışlıq olub.



Şəxsi heyətlə keçirilən görüşdə qazilərin döyüş yolu barədə məlumat verilib, müharibə xatirələrindən söhbət açılıb və bu mövzuda hərbi qulluqçuların sualları cavablandırılıb. Sonra Vətən müharibəsinə həsr olunan videoçarxlara baxılıb. Qazilərə hədiyyələr, fərman və təşəkkürnamələr təqdim olunub.

Hərbi hissələrin qonağı olan qazilər üçün çay süfrəsi açılıb. Müxtəlif bölgələrdən gəlmiş qazilər onlara göstərilən diqqətə və belə tədbirlərin təşkil olunmasına görə dərin minnətdarlıqlarını bildiriblər. Sonda xatirə şəkilləri çəkdirilib.

**Yalçın Abbasov**

# QAZİMİZ İSVEÇRƏ QRAN-PRİ TURNİRİNDƏN QIZIL MEDALLA QAYIDIB

Azərbaycan paraatleti, Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının sabiq hərbi qulluqçusu, istefada olan gizir Rasim Yaxin İsveçrənin Nottvil şəhərində keçirilən Qran-Pri turnirində qızıl medal qazanıb.

Azərbaycan Milli Paralimpiya Komitəsindən verilən məlumata görə, nüvə itələmə növündə (F46) 11,71 metrlik nəticə göstərən idmançı fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.




Məlumat üçün qeyd edək ki, R.Yaxin Daxili Qoşunların 99713 saylı hərbi hissəsinin "Şahin" şərti adını daşıyan xüsusi təyinatlı dəstəsində yarımqrup komandiri vəzifəsində xidmət edib. 44 günlük Vətən müharibəsinin ilk günündən hərbi əməliyyatlara qatılıb, Murovdağdan Şuşayadək şanlı döyüş yolu keçib. Noyabrın 7-də Şuşa uğrunda gedən döyüşdə düşmənin atdığı tank mərmisinə tuş gələrək ağır yaralanan cəsur hərbi qulluqçumuz sol əlini və sol gözünü itirib.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin imzaladığı müvafiq sərəncamlarla Yaxin Rasim Rinatoviç "Azərbaycan Bayrağı" ordeni, həmçinin, "Döyüşdə fərqlənməyə görə", "Kəlbəcərin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" və "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif olunub.

"Əsgər" qəzeti olaraq, Paralimpiya hərəkatına bu ilin yanvar ayından qoşulan və qısa müddətdə yüksək nailiyyət göstərən idmançı qazimizə yeni-yeni qələbələr arzulayırıq.

**Mətbuat xidməti**

# İSTEHKAM YARIMQRUPUNUN KOMANDİRİ ÖZ VƏZİFƏLƏRİNİ BACARIQLA YERİNƏ YETİRİR

"Qarşıya qoyulan tapşırıqları müvəffəqiyyətlə icra edən, döyüş hazırlığının qorunub saxlanılmasında fədakarlıq nümayiş etdirən istehkam yarımqrupunun fəaliyyəti təqdirəlayiqdir. İstehkam yarımqrupunun əsas vəzifələri təhkim olunmuş ərazidə sahibsiz qalmış şübhəli əşyaların zərərsizləşdirilməsi, partlamamış hərbi sursatların aşkar olunub təhlükəsiz hala gətirilməsi və ya partladılması, habelə meşəlik-dağlıq ərazilərdə dəstənin öncü qismində yollarının açılması, şəxsi heyətin təhlükəsiz irəliləməsidir. Xüsusi dövlət tədbirlərində əraziyə



daxil olan avtomobillərin nəzarət-buraxılış məntəqəsində yoxlanılması, qanunla müəyyən edilməmiş əşyaların, partlayıcı maddələrin axtarılması və aşkar edilməsi də istehkam yarımqrupunun qarşısında duran tapşırıqlardır".

Bu fikirləri 12318 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsində istehkam ya-



rımqrupunun komandiri baş çavuş İlkin Rəhmanlı bildirib. O söyləyib ki, tabeliyində olan hər bir hərbi qulluqçu öz funksional vəzifələrinə ciddi yanaşır, praktiki məşğələlərdə fəallıq nümayiş etdirir.

Vətən müharibəsi iştirakçısı olan baş çavuş İ.Rəhmanlı 1993-cü il avqustun 30-da Biləsuvar rayonunun Ovçubərə kəndində doğulub. Böyüyüb boya-başa çatdığı doğma kəndində şəhid İsmayıl İsmayılov adına tam orta məktəbin 11-ci sinfini 2010-cu ildə bitirib. 13-17 yaşlarında idmanın boks növü ilə həvəskar səviyyədə məşğul olub. Özünün dediyinə görə, məktəbi bitirdiyi il Bakı Dövlət Universitetinin Tarix fakültəsinə qəbul olunub, lakin ali təhsilini tamamlaya bilməyib. 2011-2013-cü illərdə Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçib. 2014-cü ildə öz arzusu ilə müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi Daxili Qoşunların 12318 saylı hərbi hissəsinin xüsusi vasitələrin tətbiqi dəstəsində atıcı vəzifəsinə təyin edilib.

Qısa müddət ərzində özünü intizamlı hərbi qulluqçu kimi göstərməyi bacaran baş çavuş İ.Rəhmanlı xüsusi təyinatlı dəstəyə keçmək üçün təyin olunmuş imtahanlarda uğurla iştirak edərək xüsusi təyinatlı dəstənin minaatan yarımqrupunda atıcı vəzifəsinə təyin olunub.

Hərbi xidmət ənənələrinə sadiq qalan hərbi qulluqçu öz sahəsi üzrə yenilikləri öyrənir, peşəkarlıq vərdişlərini təkmilləşdirir. Onun fikrincə, hər bir hərbi qulluqçu hansı sahədə olmasından asılı olmayaraq, ixtisası ilə bağlı bütün yenilikləri bilməli, savadını artırmağa çalışmalıdır. Həm hərbi hissə komandanlığı, həm də xüsusi təyinatlı dəstənin komandiri tərəfindən müsbət xarakterizə olunan baş çavuş İ.Rəhmanlı tabeliyində olan şəxsi heyətə qarşı tələbkardır. Daxili Qoşunların hərbi qulluqçusu olduğuna görə hər zaman fəxr etdiyini nəzərimizə çatdıran silahdaşımıza bundan sonrakı xidməti fəaliyyətində nailiyyətlər arzulayırıq.

**baş leytenant**
**Nigar Ağayeva**

# SAVADLI VƏ PEŞƏSİNİ SEVƏN HƏRBİ HƏKİM

Hərbi hissələrdə xidmətin keyfiyyətlə yerinə yetirilməsində, şəxsi heyətin sağlamlığının qorunub saxlanılmasında tibb xidmətinin fəaliyyəti danılmazdır. Xidməti ezamiyyətdə olarkən şəxsi heyətin sağlamlığının qayğısına qalan həkim və orta tibb heyəti haqqında materiallar hazırlayırıq. Bu mənada 16077 saylı hərbi hissənin tibb xidmətinin həkim-terapevti tibb xidməti baş leytenantı Anar Mütəllimov vəzifə borcundan irəli gələn məsələlərə məsuliyyətlə yanaşır, qarşıya qoyulan tapşırıqları müvəffəqiyyətlə yerinə yetirir.



O, 1997-ci il martın 20-də Ağcabədi şəhərində anadan olub. 2003-2014-cü illərdə Ağcabədi şəhəri Mirzə Fətəli Axundov adına 3 saylı məktəb-liseydə orta təhsil alıb. Qeyd edək ki, həmin məktəbi xüsusi nümunəli attestat və qızıl medalla bitirib. 2014-cü



ildə qəbul imtahanında iştirak edib, 682 bal toplayaraq Türkiyə Respublikası Gülhanə Hərbi Tibb Akademiyasına (hazırda Türkiyə Respublikası Tibb Elmləri Universitetinin Gülhanə Tibb fakültəsi) qəbul olunub. 2020-ci ildə ali təhsilini başa vuraraq hazırkı vəzifəyə təyin edilib.

Hərbi hissə komandanlığı tərəfindən müsbət xarakterizə olunan tibb xidməti baş leytenantı A.Mütəllimov gəldiyi ilk gündən xidmətində bacarıqlı hərbi həkim olaraq özünü təsdiq edib. Tibb xidmətinin rəisi tibb xidməti mayoru Elşən Cumiyev tabeliyində olan hərbi qulluqçunun öz üzərində çalışdığını, savadını, peşəkarlıq vərdişlərini təkmilləşdirdiyini söylədi. Şəxsi heyətin sağlamlığını qoruyan həkim-terapevt xəstələrin ambulator qəbuluna, onların stasionar müalicəsini həyata keçirməyə, təxirəsalınmaz ilk tibbi yardım göstərilməsinə cavabdehdir. Tibb məntəqəsinin rəisi olmadıqda onun vəzifələrini icra edir. Tibb xidməti baş leytenantı A.Mütəllimov hərbi qulluqçuların tibbi müayinə və bədən baxışlarını həyata keçirir, stasionar müalicəyə qəbul olunan xəstələrin sanitar işlənməsini, həkim təyinatlarının vaxtında və düzgün yerinə yetirilməsini təmin edir. Tibb məntəqəsində tibb sənədlərin düzgün aparılması, tibbi hesabatların tərtib edilməsi onun funksional vəzifələridir. O, zərurət olduqda tibb məntəqəsi rəisinin göstərişi ilə bölmələrdə profilaktik tədbirləri nəzarətdə saxlayır.

Öz gələcək karyerası barədə daim düşünən tibb xidməti baş leytenantı A.Mütəllimov ixtisası üzrə elmi dərəcə almaq arzusundadır. Kitablara maraq göstərən hərbi qulluqçumuz boş vaxtlarında mütaliə etməyə üstünlük verir. Həm savadlı, həm də peşəsini sevən hərbi həkimimizə biz də, öz növbəmizdə, xidməti fəaliyyətində müvəffəqiyyətlər arzulayırıq.

**baş leytenant**
**Nigar Ağayeva**

*idman*

# DAXİLİ QOŞUNLARIN YIĞMA KOMANDASI BİRİNCİLİYİ QAZANIB



Daxili işlər nazirinin müvafiq əmrinə əsasən, iyun ayının 1-dən 3-dək daxili işlər orqan və hissələri arasında xidməti çoxnövçülük üzrə şəxsi və komanda birinciliyi uğrunda yarış keçirilib. Yarışda Daxili Qoşunların yığma komandası 7 nəfər idmançı və nümayəndə ilə təmsil olunub. Yarışın proqramına uyğun olaraq, iştirakçılar güllə atıcılığı, 1000 m məsafəyə qaçış və üzgüçülük üzrə öz məharətlərini sınayıblar. Tapançadan atəş (PM-1) tapşırığının yerinə yetirilməsi üzrə 16075 saylı hərbi hissədə xüsusi təyinatlı dəstənin xüsusi həmlə qrupunun atıcı-snayperi MAXE əsgər Vüsal Əliyev 1-ci yerə, 67987 saylı hərbi hissədə xüsusi təyinatlı dəstənin xüsusi həmlə qrupunun atıcı-qumbaraatanı çavuş Rövşən Həsənov 3-cü yerə layiq görülüblər.

1000 m məsafəyə qaçış üzrə Ali Hərbi Məktəbin zabit hazırlayan tədris taborunda zabit hazırlayan tədris bölüyünün kursantı Asif Məmmədov 2-ci yeri, 67987 saylı hərbi hissədə xüsusi təyinatlı dəstənin xüsusi həmlə qrupunun atıcı-qumbaraatanı çavuş Rövşən Həsənov 3-cü yeri tutublar.

67987 saylı hərbi hissədə xüsusi təyinatlı dəstənin xüsusi həmlə yarımqrupunun heyət nəfəri çavuş Əhməd Bağırov xidməti çoxnövçülük üzrə yarışın kubokuna layiq görülüb. Ümumilikdə, yarışın nəticələri üzrə Daxili Qoşunların yığma komandası 15 komanda arasında birinciliyi qazanıb. Yarışda fərqlənən hərbi qulluqçular mükafatlandırılıblar.

**Mətbuat xidməti**

*NÜMUNƏVİ XİDMƏT*

# FUNKSİONAL VƏZİFƏLƏRİNİN İCRASINA MƏSULİYYƏTLƏ YANAŞAN RABİTƏÇİ

16077 saylı hərbi hissənin təminat bölüyünün rabitə taqımında radiotelefonçu əsgər Namiq Kərimli 2003-cü il iyun ayının 3-də Bakı şəhərində anadan olub. 2021-ci ildə Qaradağ rayonunun Lökbatan qəsəbəsində yerləşən 166 saylı tam orta məktəbi bitirib. 2021-ci ilin iyul ayında müddətli həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi Daxili Qoşunların sıralarına qəbul olunub. 25032 saylı hərbi hissədə kiçik mütəxəssislər hazırlayan tədris bölüyündə kurs keçib.



Funksional vəzifələrinin icrasına məsuliyyətlə yanaşan hərbi qulluqçumuz ona verilən tapşırıqları vaxtında və keyfiyyətlə yerinə yetirir. Rabitənin normativ sənədlərdə tələb edilən keyfiyyətdə, bütün məlumatların ötürülməsinə hazır vəziyyətdə olmasını təmin etmək, telefon rejimində danışıqlar zamanı gecikmə və pozuntular olarsa onları aradan qaldırmaq, aparatların, radiostansiyaların, rabitə və AİS vasitələrinin təyinatı üzrə istismar parametrlərinə uyğun olaraq daimi hazırlığını təmin etmək əsgər N.Kərimlinin funksional vəzifələridir. O, məxfilik rejiminə və rabitənin təhlükəsizliyi tədbirləri üzrə tələblərə ciddi riayət edir, rabitə döyüş postunda daxili səliqə-sahmanı qoruyub saxlayır.

Daxili Qoşunlarda xidmətilə fəxr edən əsgər N.Kərimli hər bir gəncin Vətənə olan borcunu layiqincə qaytarmasının, komandirlər tərəfindən qoyulan tapşırıqların dəqiqliklə yerinə yetirilməsinin vacibliyini vurğuladı, qoşunlarda rabitəçilərin hazırlığına diqqətin artırıldığını söylədi.

**16077 saylı hərbi hissənin ştatdankənar müxbir postu**

# HƏRBİ XƏBƏRLƏR -YENİLİKLƏR-

### "Saab" ABŞ ordusuna "Carl-Gustaf M4" qumbaraatanları tədarük edəcək

İsveçin "Saab" şirkəti ABŞ ordusuna açıqlanmayan sayda çoxməqsədli daşınan "Carl-Gustaf M4" qumbaraatanlarının çatdırılması üçün müqavilə imzalayıb. "Poliqon" "Saab" şirkətinin mətbuat xidmətinə istinadən xəbər verir ki, dördüncü nəsil "Carl-Gustaf" qumbaraatanlarının tədarükünə dair müqavilənin dəyəri 16 milyon ABŞ dolları təşkil edib.



Qeyd edək ki, "Carl-Gustaf" qumbaraatanı bir çox NATO müttəfiqi də daxil olmaqla, 40-dan çox ölkənin ordusunda istifadə olunur.

# Allah rəhmət eləsin

Daxili Qoşunların komandanlığı polkovnik-leytenant Emil Rüstəmova **anasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

17072 saylı hərbi hissənin komandanlığı kapitan Araz Hüseynova **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

*TƏSİSÇİ:*
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: Anar Əhmədov

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000